Xalq qəzeti 2021.- 8 iyun.- S.5.

# Azərbaycanın Qələbəsi bölgədə etibarlı sülh və sağlam dialoq ruhu aşılayır



***Bu il 28 Mayı bir başqa ruhda bayram etdik. Səbəbi hamıya aydındır. İşğaldan azad edilmiş Qarabağımızla, Şuşamızla birgə sevindik… Ötən bayramlarda bayram ovqatı, həvəsi kəm qalırdı... Amma bilirdik ki, müqəddəs bayrağımızın bir daha yüksəlməsi üçün respublika ərazisindəki ən münasib yer Şuşadır, əlbəttə. “Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur!” kəlamının bir yolgöstərən, ruh və mübarizə qaynağı olduğunu bilirdik. Və nəhayət gün gəldi: “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” – müjdəsini eşitdik. Gözümüz, könlümüz təzələndi, üzümüzə həqiqi gülüş gəldi, sevinc, fərəh tanıdıq, əsl bayram nədirsə, onu bildik!***

Cümhuriyyətin elanından 103 il, dövlət müstəqilliyinin bərpasından 29 il 7 ay, Şuşanın azadlığından 6 ay 20 gün keçdikdən sonra, Azərbaycan Prezidentinin ünvanına çoxsaylı təbriklər gəldi. Yubiley günü deyil və bu qədər məhəbbət dolu məktubların yalnız “protokol təbriki” ənənəsi ilə bağlı olmadığı bəllidir. Bu məktubların az qala hamısından Şuşa qoxusu gəlir. Qalib Azərbaycanın müzəffər Prezidenti təbrik edilir! Dost da, dost olmayan da yeni reallığın doğurduğu ovqatı görür və onu müəyyən şəkildə dəyərləndirilir.

Heç şübhəsiz, Qarabağda tarixi zəfər birdən - birə meydana gəlmiş hadisə olmadığı kimi, bayram təbriklərinin göndərilməsi, o təbriklərin məzmunu da anidən formalaşmayıb. Qələbə üçün illər uzunu iş aparılıb, məqsədyönlü siyasət yürüdülüb. O da bəllidir ki, başqa dövlətlərlə münasibətlər, dostluq, strateji müttəfiqlik, qardaşlıq, etibarlı tərəfdaşlıq, ləyaqətli və məsuliyyətli davranış sayəsində əsl gözəllik, mahiyyətə uyğun məzmun daşıyıb.

Müstəqil respublikamız özünəxas beynəlxalq nüfuza malikdir. Xüsusilə, bölgənin lideri və beynəlxalq təşəbbüslərin gerçək, məsuliyyət və ləyaqətə sahib müəllifi olan Azərbaycan, əldə etdiyi uğurlar, qazandığı tərəfdaşlar sayəsində dünyanın siyasi xəritəsində öz statusunun yüksəlməsinə nail olub. Dünyanın fərqli coğrafiyalarında yerləşən 60 - dan artıq ölkənin başçısının Azərbaycan Prezidentinə təbrik məktubu yazması, o məktublarda ifadə olunan fikirlər respublikamızın beynəlxalq münasibətlər sistemində artan nüfuzunun parlaq göstəricisidir. Azərbaycanın bölgədə yaratdığı yeni reallıq dünyanın siyasi xəritəsində status və rolumuzu artırıb. Vətən müharibəsindən sonra əməkdaşlıq etdiyimiz prioritet ölkələr sırasına daxil olmaq üçün yalnız ABŞ- la Rusiyanın deyil, eləcə də, Çinlə ABŞ- ın rəqabət aparması çox şeydən xəbər verir.

Yeri gəlmişkən, yeni ABŞ Prezidenti Azərbaycan Prezidentini mart ayında – Novruz bayramı münasibətilə təbrik etmiş, xoş arzularını çatdırmışdı. Budur, birinci məktubdan az sonra, ABŞ prezidentindən ikinci təbrik məktubu və xoş sözlər gəldi və bu, əməkdaşlığın gücləndirilməsinin ifadəsidir. Təbrik məktubunda ikitərəfli münasibətlərin çoxşaxəliliyinə xüsusi önəm vurğulanır: ABŞ - la Azərbaycan təhlükəsizlik, enerji və demokratik idarəetmə məsələlərində birlikdə çalışıblar və bu əməkdaşlığın davam və inkişaf etdirilməsi əzmi, iradəsi var. Ağ ev Administrasiyası ötən il Cənub Qaz Dəhlizinin işə salınması ilə Azərbaycanın Avropanın enerji şaxələndirilməsinə verdiyi xüsusi töhfələri, bu il Xəzərdəki "Dostluq" yatağının Türkmənistanla birgə kəşfiyyatına və işlənməsinə dair imzalanan tarixi Anlaşma Memorandumunu qətiyyətlə dəstəkləyir. ABŞ- ın siyasi rəhbərliyi dünyanı təhdid edən terrorla mübarizədə müstəqil Azərbaycanın oynadığı önəmli rolu etiraf edir: ABŞ Prezidenti Azərbaycana NATO - nun Əfqanıstandakı missiyasına, terrorla mübarizəyə verdiyi 20 illik dəstəyə görə minnətdarlığını bildirir, mövcud istiqamətdəki işbirliyinin önəmini vurğulayır.

Təbii ki, ATƏT- in Minsk qrupunun həmsədri olmaq etibarilə də, ABŞ- ın Qafqazda sülhün bərqərar olunmasına münasibətsiz qalmayacağı gözləniləndir. ABŞ dayanıqlı sülh üçün töhfələr vəd edir. 30 illik işğaldan, ağır müharibədən zəfərlə çıxmış Azərbaycanın bundan sonra qonşu dövlətlərlə sülh içində yaşaması yalnız ABŞ- ın ümidi deyil, bütün yaxın - uzaq ölkələrin də töhfə verməli olduğu bir hadisə olmalıdır. Azərbaycanla Ermənistan arasında əlaqələrin normallaşdırılmasına kömək etmək, vətəndaş cəmiyyəti institutları ilə də işləmək və icmalara yanaşı yaşamaq lazım olduğunu izah etmək istiqamətində ABŞ- ın töhfələrlə çıxış etməyə güclü imkanları mövcuddur. Ağ ev rəhbərliyi ATƏT- in Minsk qrupunun həmsədri kimi Ermənistanla Azərbaycan arasında uzunmüddətli siyasi həllə dair danışıqlarda kömək etməyə sadiq qaldığını vurğulayır.

Müstəqil və qalib dövlət olaraq Azərbaycan digər ölkələrlə də ikitərəfli münasibətlərdə maraqlıdır. Əslində, indi Azərbaycanla əməkdaşlıq bizdən daha çox, bizimlə əməkdaşlıq edəcək ölkələr üçün maraqlıdır. Bizim coğrafi mövqeyimiz, dürüstlüyümüz, dövlət, xalq ləyaqətimiz, beynəlxalq hüquqa sayğımız, multikulturalizmə töhfələrimiz və iqtisadi imkanlarımız bizi cazibədar ölkə halına gətirib. Tarixi zəfərlə yanaşı, qlobal pandemiya ilə mübarizədə əldə etdiyimiz uğurlar da bu sırada özünəməxsus yerə, rola malikdir. Biz pandemiyanın elan olunduğu ilk günlərdən beynəlxalq əməkdaşlıq üçün real addımlar atdıq, qlobal mübarizəyə maddi, mənəvi dəstək nümayiş etdirdik. Məhz Azərbaycan beynəlxalq platformaları hərəkətə gətirdi, müvafiq qətnamələr, qərarlar qəbul olundu, mühüm çağırışlar edildi və konkret addımlar üçün ciddi zəmin yarandı. Xüsusilə də, böyük və daha imkanlı dövlətlərdən bəziləri qlobal pandemiyaya münasibətdə qeyri - insani davrandığı üçün Azərbaycanın ədalətli rəftara çağırışlar səsləndirməsi tarixdə öz yerini alacaq. Artıq Azərbaycanla dostluğun zəruriliyi dünya birliyi tərəfindən dərk olunur.

Bizim Qarabağdakı qələbəmiz yaxın - uzaq ölkələrə də yeni iqtisadi imkanlar açır. Xüsusilə, Zəngəzur dəhlizi işə düşdükdən sonra bölgənin dizaynı dəyişəcək. Yəni biz əsl qaliblə, keçmiş saxta “qalib”in fərqini artıq dünyaya göstərmiş oluruq. Bizim qələbəmiz dünyanın inkişaf qanunauyğunluğu ilə tərs mütənasib deyil. Dünyanın böyük dövlətləri, bölgənin əsas aktorları da daxil olmaqla, Azərbaycanın qələbəsi hər kəsə rifah, iqtisadi qazanc, möhkəm sülh, dialoq ruhu aşılayır.

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin Mədəniyyət komitəsinin sədri***